Xalqın qəzeti!

# Xalq qəzeti

№ 149 (30553) 18 iyul 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az



# Azərbaycan Avropanın "yaşıl enerji" təchizatçısına da çevrilir

**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) qlobal miqyasda enerji sisteminin transformasiyasının aparıcı qüvvəsi və əməkdaşlıq üçün başlıca platforma kimi qabaqcıl təcrübə mərkəzi rolunu oynayaraq bu sahədə texnologiya, resurslar və maliyyə imkanları haqqında bilikləri bir yerə toplayan hökumətlərarası təşkilatdır. IRENA dayanıqlı inkişaf, enerjiyə çıxış, enerji təhlükəsizliyi və aşağı karbon emissiyalı iqtisadi artım və rifah hədəflərini rəhbər tutaraq bioenerji, geotermal, hidroenergetika, okean, günəş və külək enerjisi də daxil olmaqla bərpaolunan enerjinin bütün növlərinin geniş yayılmasını, həmçinin davamlı istifadəsini təşviq edir.**



Yarandığı dövrdən indiyə kimi təşkilata 168 ölkə və Avropa İttifaqı (Aİ) üzv qəbul edilib. Azərbaycan isə 2009-cu ildən IRENA-nın üzvlüyünə seçilib və 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə bu beynəlxalq təşkilatın nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub. Ötən il yanvarın 14–15-də keçirilən IRENA Assambleyasının 13-cü sessiyasının qərarına əsasən, respublikamız 2023–2024-cü illər üzrə IRENA Şurasına üzv seçilib.

IRENA-nın baş direktoru Françesko La Kamera mediaya müsahibəsində Azərbaycanla bu qurum arasında əməkdaşlığın genişləndirilməsi, enerji keçidinin sürətləndirilməsi, eyni zamanda "yaşıl enerji" texnologiyalarına qlobal investisiyaların yatırılması və Bakının evsahibliyi edəcəyi COP29 barədə fikirlərini bölüşərkən bildirib ki, rəhbəri olduğu təşkilatın fəaliyyəti çox genişdir. Qurumun intellektual potensialı 2025-ci ildə ölkələrə öz milli səviyyələrində verdikləri töhfələri nəzərdən keçirməyə xidmət edir. IRENA, həmçinin Azərbaycanda bərpaolunan enerjiyə sərmayə qoyuluşunun təşviqini gerçəkləşdirir.

**(ardı 8-ci səhifədə)**

# Dünya Bankı ilə COP29 müzakirəsi



**Energetika naziri Pərviz Şahbazov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən verilən məlumata görə, görüşdə Azərbaycanla Dünya Bankı arasında enerji sektorunda əməkdaşlığın inkişafı, ölkəmizdə "yaşıl enerji"nin inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi layihəsi, o cümlədən "Masdar" şirkəti tərəfindən reallaşdırılan günəş və külək elektrik stansiyalarının enerji sisteminə qoşulması ilə bağlı görülmüş işlər müzakirə edilib.

Tədbirdə "Azərenerji" ASC-nin nümayəndələri də iştirak ediblər.

***XQ***